

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 fevral 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 5 (3717)


# Azərbaycan gəncliyinin hamisi

## Zəfər qazanan vətənpərvər gənclik gələcəyin də qarantıdır

**Ötən onilliklər ərzində əhalinin, o cümlədən Azərbaycan gəncliyinin sosial müdafiə sistemi təkmilləşdirilib. Yeni nəsil üçün yüksək sosial rifah və insan kapitalının inkişafı təmin olunub.**



Prezident İlham Əliyevin gənclər siyasəti bu nəslin inkişafını, təhsilini, məşğulluğunu və cəmiyyətə inteqrasiyasını dəstəkləməyə yönəlmiş kompleks siyasətdir. Gənclərin keyfiyyətli təhsilalma imkanlarının genişləndirilməsi ən mühüm istiqamətlərdəndir. Azərbaycanda təhsilin bütün potensiallı gənclər üçün əlçatanlığı təmin olunub, ölkə gəncləri qarşısında geniş üfüqlər açılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş müvafiq dövlət proqramları sayəsində minlərlə gənc dünyanın müxtəlif ölkələrində ən nüfuzlu ali təhsil müəssisələrində yeni çağın bilik və bacarıqlarına yiyələniblər.

Gənclər siyasəti sahəsində atılan addımlar və qəbul olunan qərarlar Prezident İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Müasir müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan birini də cəmiyyətin ən dinamik təbəqəsi qismində çıxış edən gənclərin potensialından səmərəli istifadə təşkil edir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir.

Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib və gəncliyimiz ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır. Gənclər siyasətində qarşıya qoyulan vəzifələrdən biri də yeni nəslin nümayəndələrinə etimad göstərilməsi, onların məsul vəzifələrə, idarəetmə işinə irəli çəkilməsi, qabiliyyət və bacarıqlarını nümayiş etdirmək üçün şərait yaradılmasıdır. Gənc kadrların irəli çəkilməsi siyasəti öz müsbət nəticələrini göstərir.

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb.

Cəsarətlə deyə bilərik ki, bu gün Azərbaycan gəncliyi tariximizin ən vətənpərvər gəncliyidir. Bu gəncliyi ümummilli lider Heydər Əliyev, Azərbaycan Prezidenti İlham Əliyev yetişdirib. Bu, uzun illərin mübarizələrindən sonra Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə dövlətimizin ərazi bütövlüyünü, suverenliyini təmin edən gənclikdir. Şuşanın sərt qayalarını aşıb yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılan, onu doğma yurdumuzdan qovub çıxaran, haqq savaşımızda Zəfər qazanıb əzəli məskənlərimizdə üçrəngli bayrağımızı ucaldan gənclikdir.

# Qardaşlığın sübutu

## Türkiyənin yanındayıq

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana iki il əvvəl qardaş ölkədə baş vermiş dağıdıcı zəlzələ qurbanlarının anım günü ilə bağlı məktub ünvanlayıb. Dövlətimizin başçısı "Bir millət iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan ölkələrimiz və xalqlarımız arasında həmrəyliyin davam edəcəyini bildirib, bir daha dərin hüznlə başsağlığı verib.

# Təhsilə töhfə

## İslahatlar uğurla davam edir

Prezident İlham Əliyev Bakıda Tərlan Heybətov adına "Vətən" İdman Liseyində aparılmış yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. Dövlət başçısına məlumat verilib ki, Birinci Qarabağ müharibəsi şəhidi Tərlan Heybətovun adını daşıyan 600 şagird yerlik Lisey dövlət əsaslı vəsait qoyuluşu hesabına yenidən qurulub. Layihə çərçivəsində 100 nəfərlik yataqxana korpusu da əsaslı təmir olunub.

# Gənclərə təbrik

## Xalqımızı qürurlandırın

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə rəsmi sosial şəbəkə hesabında paylaşım edib. Paylaşımda qeyd olunur: "Qoy hər bir gəncimiz öz zəkası, biliyi, bacarığı, qələbə və nailiyyətləri ilə xalqımızı hər zaman qürurlandırsın!".

# Şaxələnən iqtisadiyyat

## İxrac potensialımız artmaqdadır

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə güclənməsi xarici ticarət dövriyyəsinin əhatə dairəsinin böyüməsinə təkan verib. Məhz bunun nəticəsidir ki, ölkəmizin xarici ticarət əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir. Təkcə ötən il Rusiyaya 1,2 milyard dollar, Türkiyəyə 542,3 milyon dollar, Gürcüstana 272,4 milyon dollar, İsveçrəyə 220,4 milyon dollar, ABŞ-a isə 134,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev fevralın 3-də Rüfət Eyvaz oğlu Əzizovun Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.
- Azərbaycanın ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlu 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev fevralın 3-də Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 31-də 2025-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.
- COP29-a Azərbaycan Respublikasının sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə Fatih Birol "Dostluq" ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev yanvarın 31-də Sərəncam imzalayıb.
- "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncamı yanvarın 30-da imzalayıb.

# Bakı inkişaf edir, müasirləşir

## Paytaxtın yolları daha da təhlükəsiz olacaq

Prezident İlham Əliyevin 2025-ci il 30 yanvar tarixli sərəncamı ilə təsdiq edilən "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" ölkə paytaxtının, bütövlükdə, Azərbaycanın sosial-iqtisadi yüksəlişi ilə bağlı önəmli perspektivlərə xidmət edir. Strateji hədəfli bu sənəddə əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi, eyni zamanda, paytaxtımızın perspektiv inkişafı nəzərə alınmaqla yol hərəkətinin bütün iştirakçılarının təhlükəsizliyinin reallaşdırılması qarşıya mühüm vəzifələr kimi qoyulub. Paytaxtda, o cümlədən ətraf yaşayış sahələrində sürətli urbanizasiya və əhali artımı nəqliyyat və mobillik sahəsində islahatları zəruri edir. Hazırda bu istiqamətdə şəhər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə 100 kilometrdən



çox velosiped zolaqlarının inşası, sərnişinlərin ictimai nəqliyyat və digər nəqliyyat vasitələrindən istifadə təcrübəsinin tam rəqəmsallaşdırılması nəzərdə tutulur. Ümumiyyətlə, ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilib. Şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr reallaşdırılıb.

Son 20 ildə Azərbaycanda yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri, ümumilikdə, 20,8 min kilometr uzunluğunda (o cümlədən 6,6 min kilometr respublika əhəmiyyətli, 11,6 min kilometr yerli əhəmiyyətli və 2,6 min kilometr isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında, ölkə ümumilikdə, 335 ədəd körpü və yol ötürücüsü inşa olunub, 56-sı təmir edilib, 163 yeraltı və yerüstü piyada keçidi və 45 tunel tikilib.

Bundan sonra da görüləcək işlər yollarda nəqliyyat sıxlığının azalmasına, eyni zamanda, piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşmasına xidmət edəcək.


Daxili işlər naziri sıra baxışı keçirib 2

Əməkdaşlar sınağa çəkilir 2

Uğurlara yol açan təhsil ocağı 3

Azyaşlıların köməyinə polis çatıb 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Operativ nəqliyyat vasitələri artdı

Prezident İlham Əliyev "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb. Dəyişikliyə əsasən, qanunun əsas anlayışları nəzərdə tutan 1-ci maddəsində operativ nəqliyyat vasitələrinin siyahısı genişləndirilib. Beləliklə, minatəmizləmə fəaliyyəti üzrə səlahiyyətli qurumun minatəmizləmə əməliyyatlarında təcili və təxirəsalınmaz tədbirlərinin yerinə yetirilməsi və partlayıcı sursatların daşınması işlərini icra edən avtomobillər də operativ nəqliyyat vasitəsi hesab olunur.

### Sərhəddə blok-post quraşdırılmayıb

"Sərhəd-Sipər" şərti adı altında sərhədyanı rayonların ərazisində keçirilən tədbirlərdə Azərbaycan tərəfində hər hansı blok-post qoyulması zərurəti yoxdur, ölkələr arasında qarşılıqlı razılaşmaya əsasən informasiya mübadiləsi aparılır. Rusiya ilə sərhədyanı rayonların ərazisində blok-post qoyulması ilə bağlı məlumata münasibət bildirən DİN-in Mətbuat Xidmətindən bildirilib ki, bu tədbirlərin əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların icra mexanizmini diqqətdə saxlamaqdır.

### Xocalıya qayıdırlar

Xocalı rayonunun Ballıca kəndində ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Məlumata görə, 22 ailə olmaqla, 94 keçmiş məcburi köçkün doğma yurduna qovuşub. Ballıca fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su və yüksəksürətli internet xətti ilə təmin edilib.

### Qarabağda sahibkarlıq dirçəlir

Cari il yanvarın 1-nə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin sayı 5 min 240, fərdi sahibkarların sayı isə 94 min 799 təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ayın əvvəlinə Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən fərdi sahibkarların sayı 88 min 505, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 6 min 294 olub.

### Sosial xidmət yüksək səviyyədədir

Sosial cəhətdən həssas təbəqədən olan ailələrə ötən il 800 ədəd mənzil və 93 ədəd avtomobil verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hesabatında qeyd olunub. Bildirilib ki, 354 nəfər (85 nəfər sertifikat alıb) əlilliyi olan gənc peşə hazırlığı kurslarına cəlb edilib. Fəaliyyət göstərən 13 sosial müəssisədə həssas əhali qruplarından olan 2 min 813 şəxsə sosial xidmət göstərilib.

### Bu layihələr iqtisadiyyata töhfə olacaq

Azad edilmiş ərazilərdəki sahibkarların kreditinə 19,2 milyon manat dövlət zəmanəti verilib. Məlumata görə, bu kreditlər üzrə 6,2 milyon manat həcmində subsidiyanın verilməsi təsdiqlənib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edib. Sözügedən layihələr Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalıda fəaliyyət göstərərək iqtisadiyyata töhfə verirlər.

### Hərbi vəzifəlilər təlimə toplanıb

Ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.Təlim toplanışının əsas məqsədi hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, o cümlədən praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

### Yaşıl enerji diyarı

Hazırda Qarabağ və Şərqi Zəngəzurda ümumi gücü 37,5 meqavat olan 6 su elektrik stansiyası tikilir. Bu stansiyalar ümumilikdə il ərzində 110 milyon kilovatsaat "yaşıl enerji"nin istehsal edilməsi və bununla 24 milyon kubmetr qaza qənaət edilib, 44 min ton atmosferə atılan karbon qazının qarşısının alınması nəzərdə tutulur. Stansiyaların bu ilin birinci yarısında istismara verilməsi planlaşdırılır. Kəlbəcər və Laçın rayonunda isə 5 stansiyanın tikintisi başa çatıb.

### Bakıda avtomobillərin sayı artır

Son 20 ildə Azərbaycan üzrə əhalinin orta illik artım tempi 1 faiz təşkil etdiyi halda, Bakı şəhərində və ətraf ərazilərdə bu göstərici 1,3 faiz olub. Bu barədə Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramında deyilir.

# Daxili işlər naziri sıra baxışı keçirib

## Seçim turunun növbəti mərhələsinə buraxılanların 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 4-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.





# Vətəndaş məmnundursa...

## Dövlətin dayaqlarının güclənməsi üçün bu əsas tələblərdəndir

Dövlətin iqtisadi, hərbi, siyasi gücü ilə yanaşı onun dayaqlarını möhkəmləndirən əsas amillərdən biri, bəlkə də ən birincisi vətəndaş məmnunluğunun təmin edilməsidir. Bu, həm də həssas bir mövzudur. Nəzərə alsaq ki, ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ölkəmizdə bu məsələnin prioritetlərdən olması ondan xəbər verir ki, o ölkə rəhbərinin birbaşa nəzarətindədir. Vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması, diqqətlə araşdırılıb həllinə nail olunması qarşıya qoyulan məsələlər sırasında birinci olmaqla, həm də dövlət qurumları əməkdaşlarının əsas vəzifələrindəndir.

Ölkə başçısının tapşırığına əsasən bu istiqamətdə paytaxda və yerlərdə zəruri addımlar atılır. Bütün bunlar bir daha sübut edir ki, dövlətin diqqət mərkəzində vətəndaş və onun maraqları dayanır.

Yeri gəlmişkən, DİN-də ötən ilin yekunlarına həsr olunmuş Kollegiya iclasında da bu məsələ diqqət mərkəzində olmuşdur. Hesabat ilində 6.055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4.468 vətəndaşın qəbul edilməsi, qaldırılan məsələlərin əksəriyyətinin yerində və müsbət həlli vətəndaş məmnunluğunun təmin olunmasına göstərilən həssaslığın bariz nümunəsidir. Vətəndaş müraciətlərinə baxılması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması qanunçuluğun qorunmasına öz töhfəsini verir. Bu istiqamətdə işlər daha da təkmilləşir. Belə ki, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə cavab verməsi, dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılması ötən ayda DİN-ə ünvanlanan müraciətlərin statistikasında da özünü göstərir.

Yanvar ayının 1-dən 31-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj və rəy bölməsinə daxil olan 3702 müraciətdən 704-ü (153-ü təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.Müraciətlərin məzmununa əsasən aparılan təhlil zamanı müəyyən edilib ki, müraciət və daxil olan suallardan 221-i kadr və maliyyə məsələləri, 436-sı DİO əməkdaşlarının fəaliyyəti, 323-ü DYP-nin fəaliyyəti ilə bağlıdır. Məişət və digər sosial xarakterli məsələlər, qeydiyyat və şəxsiyyət vəsiqəsi, onlayn dələduzluqlar və mülkiyyət əleyhinə törədilən cinayətlərlə əlaqəli vətəndaşlarımızdan DİN-ə müraciətlər ünvanlanıb. Ən çox müraciət olunan mövzular sırasında qanunvericilik də var. Bunlarla əlaqədar vətəndaşlar 1033 sual ünvanlayıb. İctimai təhlükəsizlik məsələləri ilə yanaşı, şəxsiyyət əleyhinə törədilən cinayətlər barədə və heyvanlara qarşı olunan zorakılıqlar da vətəndaşlarımızı DİN-ə müraciət etməyə sövq edib.

Bütün bu rəqəmlər, faktlar onu deməyə əsas verir ki, vətəndaş müraciətlərinin cavablandırılması digər dövlət qurumları kimi DİN-in də fəaliyyətinin əsas tərkib hissəsidir və bu istiqamətdə işlərin vaxtında, şəffaf həyata keçirilməsi rəhbərliyin xüsusi nəzarətindədir.

*T.Hafiz*

# Əməkdaşlar sınağa çəkilir

## Məharət dərəcələrini almaq üçün xidməti hazırlıqlarını təsdiq etməlidirlər

Daxili işlər orqanları əməkdaşlarına məharət dərəcələrinin verilməsi üçün Əlahiddə Çevik Polis Alayının inzibati binasında məharət imtahanları keçirilir. İmtahanlarda əməkdaşların xidməti, döyüş və fiziki hazırlıq səviyyələrinin yekun qiymətləndirilməsindən sonra məharət dərəcələri veriləcək.

Qeyd edək ki, daxili işlər orqanlarında qurulan peşə hazırlığı sisteminə əsasən əməkdaşlar qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı ilboyu onların peşə hazırlığı davamlı olaraq yoxlanılır. Hər ilin yekununda əməkdaşların peşə hazırlığını qiymətləndirmək üçün ilin xidməti, döyüş və fiziki hazırlıq səviyyələri ayrıca



qiymətləndirilir. Bu qiymətləndirmənin yekununda "yaxşı" və "əla" qiymət alanlar məharət dərəcələrinə təqdim olunurlar. Peşəkarlıq səviyyəsinə görə "ikinci", "birinci" və "usta" məharət dərəcələri müəyyən olunub ki, bu dərəcələr həm peşəkar əməkdaşları fərqləndirir, həm də dərəcəyə görə əmək haqqına edilən əlavələr onlara daim öz üzərlərində işləmələrinə, peşəkarlıqlarını artırmalarına stimul yaradır.

İlk olaraq əməkdaşların xidməti hazırlığı test üsulu ilə yoxlanılır. Tərtib olunan 40 sualdan 20-si bütün polis əməkdaşlarına aiddir və ümumi biliklərin öyrənilməsinə xidmət edir. Qalan 20-si isə hər xidmət sahəsinin özünə aid suallardır. Əməkdaşın nəticələri avtomatik olaraq kompüterdə qiymətləndirilir, bununla da prosesin tam şəffaf, obyektiv keçirilməsi təmin olunur.

Test mərhələsini uğurla keçənlərin növbəti mərhələdə fiziki hazırlıq səviyyəsi yoxlanılır. Burada da əməkdaşlar üç istiqamət üzrə - güc keyfiyyətini yoxlamaq üçün turnikdə dartınma, çəldlik keyfiyyətini yoxlamaq üçün 100 metrə qaçış, dözümlüyü yoxlamaq üçün isə 1000 metr məsafəyə qaçış normativlərini yerinə yetirirlər. Həmçinin də əlbəyaxa döyüş fəndlərinin tətbiqi bacarığı üzrə imtahan verirlər.

*"Polis"*

# Məktublar məmnunluğun ifadəsidir

## Yazılanlar xidmətimizdə dönüş yaratmaq üçün məsuliyyətimizi artırır

Bakı şəhər sakini Sadiq Həsənzadə DİN-in "Instagram" səhifəsinə ünvanladığı təşəkkür mesajında ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Yasamal RPİ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Bakı şəhər sakini Sadiq Elvin Bəşirli DİN-in "Instagram" səhifəsinə ünvanladığı təşəkkür mesajında bank kartından maddi vəsaitinin oğurlanması ilə bağlı etdiyi müraciətinə operativ baxılaraq müsbət həllini tapmasına görə Pirallahı Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkür edir.

Sosial şəbəkə istifadəçisi Səbuhi Kərimov baş vermiş yol-nəqliyyat hadisəsilə bağlı obyektiv araşdırma aparılmasına və göstərilən köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin rəhbərliyinə təşəkkürünü bildirir.

Naxçıvan şəhər sakini Fizzə Kərimova müraciətinə operativ baxılmasına və dəymiş ziyanın ödətdirilməsinə görə Naxçıvan Muxtar Respublikasının DİN rəhbərliyinə və Naxçıvan Şəhər Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Əkbər Həşimli müraciətinə həssas yanaşılmasına və göstərilən köməkliyə görə Səbail Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlıq edir.

Vətəndaş Zabit Ələkbərov ona qarşı törədilən dələduzluq faktı ilə bağlı şikayətinə obyektiv baxılaraq dəyən maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Nəsimi RPİ-nin TŞ-nin əməkdaşlarına təşəkkür edir.

*"Polis"*

# Uğurlara yol açan təhsil ocağı

## Yaradılan şəraitlə, yeniliklərlə tanış oldular

Ötən il kursant adını qazanan gənclərin valideynlərindən ibarət bir qrup onların polis peşəsinə yiyələnmək üçün oxuduqları qocaman təhsil ocağını, maddi, sosial təminatları və imtiyazları ilə yaxından tanış olmaq məqsədilə Polis Akademiyasını ziyarət ediblər.

DİN rəhbərliyinin təşəbbüsü ilə Akademiya ilə daha yaxından tanış olmaq fürsəti əldə edən qonaqların diqqətini burada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, yataqxanalar, qapalı atıcılıq tiri və idman şəhərciyi





çəkib. Övladlarının sağlam qidalanmaları, dincəlmələri üçün yaradılan şəraiti yüksək qiymətləndirən qonaqlar onlarla birlikdə nahar ediblər.

Polis Akademiyasının idman meydançaları və zalları ilə də tanış olan valideynlərin diqqətinə çatdırılıb ki, tədris ocağında gələcəyin asayiş keşikçilərinin fiziki cəhətdən sağlam ruhda tərbiyə olunmalarına xüsusi önəm verilir.

Akademiyanın rəhbərliyi ilə görüşən valideynlər övladlarının mükəmməl təhsil almaları, peşəkar polis əməkdaşı kimi yetişmələri üçün DİN rəhbərliyi tərəfindən yaradılan şəraitdən məmnun olduqlarını vurğulayıblar.

Polis Akademiyasının rəisi, polis general - mayoru Canpolad Daanov qonaqlara Akademiyada yaradılan imkanların, şəraitin məhz onların övladlarının xoşbəxt, sağlam gələcəyinə xidmət etdiyini bildirib, Vətənimizə, xalqımıza layiq gənclərin yetişməsi üçün hələ görüləcək çox işlərin olduğunu qeyd edib.

*T.Aytən*

# Silahları susduraq...

## Bu məsələdə könüllülük əsas şərtdir

**Bəzən elə situasiyalar olur ki, adam haqlı olduğuna görə təəssüflənir. Xüsusən, hər hansı bədbəxt hadisədən, arzuolunmaz nəticədən əvvəl edilən xəbərdarlığın gerçəkliyə çevrilməsi insanda "kaş ki, yanılaydım" arzusu doğurur. Nə qədər qəribə də olsa, haqlılıq məyusluq yaradır belə anlarda.**

Ağcabədidə baş verən hadisə bizi eyni vəziyyətlə bir daha üzləşdirdi. Rayonun Hindarx qəsəbəsindəki hadisənin təfərrüatı artıq hamıya məlumdur. Yayılan məlumata görə azyaşlı uşaq oynayan zaman qumbara tapır, onu evə gətirir və ailə üzvlərinə verərkən qumbara açılır. Partlayış nəticəsində 5 nəfər ölür, 2 nəfər isə xəsarət alır.

Bu, ilk belə hadisə deyil. Ən azı, sinif yoldaşını Birinci Qarabağ müharibəsi dönəmində qardaşının cəbhədən gətirdiyi sursatın partlaması ilə itirən bu sətirlərin müəllifi olaraq, bir faktı dəqiq xatırlayıram. İndi silah-sursatın polisə könüllü təhvil verilməsinin zəruriliyi barədə çağırışlara cəmiyyətdən, əsasən, adekvat reaksiya verilir. Ancaq buna etinasız yanaşanlar da olduğu müddətcə, təəssüf hissi ilə deməliyik ki, bu hadisə sonuncu da olmayacaq. O zaman da zərərçəkənlərin peşimançılığı ilə haqlı olanın məyusluğu nəticəni dəyişməyəcək. Kimsə qumbaranı polisə təqdim etmək yerinə, azyaşlıların tapa biləcəyi əraziyə atdığına görə bir ailənin 5 üzvünün həyatına bais olub. Ortada ağır cinayət faktı, dəhşətli ailə faciəsi vardır.



Yeri gəlmişkən, ötən nömrəmizdə qeyd etdiyimiz rəqəmi bir daha xatırlatmaq istərdik. Keçən il polis əməkdaşları 1 milyona yaxın sursat aşkarlayıblar ki, onların hər biri təhlükə mənbəyi, potensial ölüm "alətidir". Bir qumbaranın səbəb olduğu faciəni düşünəndə, polislərin nə qədər həyatı xilas etdiyini adam dilinə belə gətirmək istəmir. Çünki ehtimal edilən hadisələrin miqyası çox vahiməli səslənir. Bu hadisə, eyni zamanda, işğaldan azad edilən ərazilərdə silah-sursatların, minaların tapılaraq götürülməsinin nə qədər həyati əhəmiyyətli fəaliyyət olduğunu gözlər önünə sərir. Bir vaxtlar silah və sursatlara çirklənmiş torpaqlar günbəgün "yatan ölümlərdən" təmizlənir. Qarabağ və Şərqi Zəngəzurda böyük tikinti və quruculuq işlərinin start götürməsi məhz bundan sonra mümkün olub. Dinc sakinlərin yurd-yuvalarında təhlükəsiz şəraitdə yaşamaları istiqamətində polisin "təmizləmə" əməliyyatında birbaşa iştirakı bu baxımdan Böyük Qayıdışa ciddi töhfə kimi qəbul edilir. Polis əməkdaşlarının bu gün də azad edilən ərazilərdə silah-sursat aşkar etməsi göstərir ki, təhlükə hələ tam sovuşmayıb. Qarabağın dağında-dərəsində gəzən bir vətəndaşın ölkənin digər bölgələri ilə müqayisədə, təbii ki, silah və sursatla qarşılaşma ehtimalı xeyli yüksəkdir. Belə halda, hər bir vətəndaşın həm özünün təhlükəsizliyini, həm də hüquqi məsuliyyətini anlaması və ona görə davranması mütləqdir. Tapılan silahın ictimai təhlükəli əməldə istifadəsinin və ya Ağcabədidə olduğu kimi, ehtiyatsızlıqdan bir neçə nəfərin ölümünə səbəb olmanın önünə yalnız polisi məlumatlandırmaqla keçmək olar. Yalnız silahı könüllü təhvil verməklə onu susdurmaq mümkündür. Onu da qeyd etməliyik ki, bütövlükdə ölkə üzrə vətəndaşların odlu silahları könüllü təhvil verməsində müsbət tendensiya açıq-aşkar müşahidə edilir. Tapılan, hər hansı səbəbdən bu vaxta qədər polisə təhvil verilməyən silahı gətirib polisə təqdim edən vətəndaşın buna təşviq edilməsi, silahdan imtina prosesinin uğurla davam etməsini şərtləndirir. Ümumən belə görünür ki, aparılan profilaktikanın müsbət nəticəsi olaraq, vətəndaşlar daha talelərinin divardan asılmış, şifonerdə gizlədilmiş... silahlardan asılı olmasını istəmirlər.

*Rəşad Mehtiyev*

# Tarixə yazılan polis...

## Adı doğulduğu şəhərdə əbədiləşdirildi

SSRİ rəhbərliyi 20 Yanvar faciəsini törətdikdən sonra daha bir məkrli plan hazırlamışdı. Onlara qarşı haqq səsini ucaldan, onları əllərini günahsız insanların qanına batmaqda ittiham edən igid, cəsur, ziyalı övladlarımızı soyuq Rusiyanın həbsxanalarında ömürlük həbs etmək qərarı verilmişdi.

O günlərdə azadlıq sevdası ilə alışıb yanan hər kəs bir qəhrəman idi, ancaq bu "alovun" sönməməsi üçün özünü oda- közə atıb fədakarlıq edənlərin tarixə düşmə haqqı, təbii ki,



daha çoxdur. Eyni ilə polis polkovniki Varis Məcidov kimi. O, Rusiyanın Ulyanovsk şəhərində milis məktəbini bitirmişdi. Bu şəhərin dəmiryolunda əməliyyat müvəkkili işləyən həmkarımıza xəbər çatır ki, Dİİ-nin təcridxanasında aralarında ziyalıların, tanınmış şəxslərin olduğu 46 azərbaycanlı dustaq saxlanılır. Polis kapitanı Varis Məcidov onları öz himayəsinə alır. Həmkarımız dustaqların Azərbaycana qatarla göndəriləcəyi halda, işgəncəyə məruz qalacağını bilib, öz şəxsi vəsaiti hesabına onlara həm qatar, həm də təyyarə biletləri alır. Müvafiq qurumlara 46 azərbaycanlının qatar biletini təqdim etsə də, soydaşlarımızı Bakıya təyyarə ilə yola salır. Bu məsələdən xəbər tutan rəhbərlik onu bağışlamır və təzyiqlər başlayır. Buna görə də doğma Vətəninə qayıdıb Kürdəmir RPŞ-də narkotiklərlə mübarizə qrupunun əməliyyat müvəkkili vəzifəsində xidmətini davam etdirir. Əfsuslar olsun ki, vətənpərvər polis polkovnik-leytenantı Varis Məcidov 2005-ci ildə avtomobil qəzasında dünyasını dəyişib…

Bu qəhrəman Azərbaycan polisinin ölümündən 20 il sonra adı əbədiləşdirildi. Varis Məcidovun adı Göyçayda küçələrdən birinə verilib.

*"Polis"*

# Məktəblilərin uğurlu yolu

## Polisin dəstək verdiyi yeni layihə müzakirə olunub

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi və Bakı Şəhəri üzrə Təhsil İdarəsi "1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi"nin birgə fəaliyyət proqramına uyğun olaraq müxtəlif layihələr həyata keçirilir. İdarənin əməkdaşları ilə 1 nöm-



rəli Uşaq-Gənclər İnkişaf Mərkəzində növbəti görüş keçirilib. Görüşdə Bakı şəhər ümumtəhsil məktəblərində uşaqlar arasında keçiriləcək "Yolunuz uğurlu olsun!" adlı intellektual bilik yarışının keçirilmə qaydaları müzakirə olunub. Məqsəd uşaqların yol hərəkəti qaydaları haqqında biliklərini daha da gücləndirmək, istedadlı uşaqları aşkar etməkdən ibarətdir. Görüşdə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin inspektoru polis kapitanı Pərvanə Muradova, Mərkəzin inzibati işçiləri, dərnək müəllimləri və ümumtəhsil məktəblərinin nümayəndələri iştirak edib.

# Dələduzlar tutuldu

## Vətəndaşlara külli miqdarda ziyan vurublar

Paytaxtın Yasamal və Nəsimi rayonlarında, həmçinin Sumqayıt şəhərində 3 nəfərin ümumilikdə 4080 manatının dələduzluq yolu ilə ələ keçirilməsi barədə polisə məlumatlar daxil olub. Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə dələduzluq əməllərini törətməkdə şübhəli bilinən 58 yaşlı R.Tanrıverdiyev, 42 yaşlı V.Mirzəyev və 28 yaşlı Ə.Əsədzadə müəyyən olunaraq saxlanılıb. Araşdırmalar aparılır.

# Bölmədən uğurlu əməliyyat

## Oğurluq edən keçmiş məhkum tutulub

Nərimanov rayonu Ə.Əliyev küçəsində yerləşən evlərin birindən 3200 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub. Nərimanov RPİ 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər də eyni əmələ görə məhkum olunmuş F.Tağıyeva müəyyən olunaraq saxlanılıb.

Abşeron rayonu ərazisində də analoji hadisə baş verib. Novxanı qəsəbəsi ərazisindəki evlərin birindən 3000 manat oğurlamaqda şübhəli bilinən A.Seyidverdiyev müəyyən olunaraq saxlanılıb.

Araşdırma aparılır.

# Polis izlərinə düşmüşdü

## Onlar oğurluqda şübhəli bilinirlər

Paytaxtın Nizami rayonu ərazisində "Honda" markalı avtomobilin qaçırılması barədə polisə məlumat daxil olub. Nizami RPİ 24-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən 44 yaşlı S.Əsədov müəyyən olunaraq saxlanılıb.

Keçirilən digər tədbirlə isə rayon ərazisində bir nəfərə məxsus mopedi oğurlamaqda şübhəli bilinənlər 18 yaşlı F.Əliyev və bir nəfər yeniyetmə də müəyyən olunaraq saxlanılıb.

Nərimanov rayonu ərazisində isə polis əməkdaşlarının keçirdikləri tədbirlərlə bir nəfərin mopedini oğurlamaqda şübhəli bilinən 26 yaşlı Ş.Şixəliyev və 23 yaşlı Ş.İsmayılov müəyyən olunaraq saxlanılıb.

Hər üç faktla bağlı araşdırma aparılır.

# Narkotik daşıyan "balıqçılar"

## "Ağ ölüm"ü sudan keçirmişdilər

Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən birgə keçirilən xüsusi əməliyyat nəticəsində Xəzər dənizindən qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən 13 kiloqramdan artıq narkotik vasitə və 4400 ədəd narkotik tərkibli həbin qa-



nunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb. Polis və sərhədçilərin Sumqayıt şəhəri ərazisində keçirdikləri əməliyyat nəticəsində İran vətəndaşları 32 yaşlı Qaffar Qızıl və 34 yaşlı Behzat Qaranejat Xəzər dənizi sahilində saxlanılıblar. Sonuncuların idarə etdikləri xüsusi "Yamaha" markalı mühərriklə təchiz olunmuş qayıqdan tərkibinə psixotrop maddələr əlavə edilmiş 11 kq 680 qram marixuana, 1 kq 510 qram heroin və 4400 ədəd metadon həbi aşkar olunub. Saxlanılanlar İranın dəniz kənarındakı Gümüşan vilayətindən götürdükləri narkotikləri Xəzərin Azərbaycan-Türkmənistan sərhədindəki neytral zonasından istifadə edərək qaçaqmalçılıq yolu ilə maddi qazanc əldə etmək məqsədi ilə Azərbaycana gətirdiklərini qeyd ediblər.

Qaffar Qızıl və Behzat Qaranejatın balıqçılıq fəaliyyəti ilə məşğul olmaqla yanaşı ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə vaxtaşırı narkotik vasitələr gətirən əsas şəxslərdən olduqları da müəyyən edilib. Ölkəyə qaçaqmalçılıq yolu ilə narkotik vasitələr gətirməyə cəhd edən mütəşəkkil dəstənin digər üzvlərinin müəyyən olunaraq saxlanılması istiqamətində polis əməkdaşları tərəfindən əməliyyat tədbirləri davam etdirilir.

*G.Kazımzadə*

# Qayda pozurdular…

## Barələrində inzibati tədbir görülüb

Nəsimi Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən ötən ay həyata keçirilən profilaktik tədbirlər zamanı yol hərəkəti qaydalarını kobud şəkildə pozan, narkotik vasitə, psixotrop maddə və spirtli içkinin təsiri altında avtomobil idarə edən, eyni zamanda yol polisinə tabesizlik göstərən 20 sürücü aşkar edilib. Həmin sürücülər barəsində toplanılmış materiallar məhkəməyə göndərilib, onlardan beşi inzibati qaydada həbs edilib.

*"Polis"*

# Polis Akademiyasına qəbula müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**






Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**

# Hər bir rəngin özünəməxsus sirri var

## Rənglər xarakterimizdən xəbər verir

Həyatımızda mühüm yeri olan rənglər bizim ruh halımıza, davranışlarımıza və hətta qərarlarımıza belə təsir edir. Rənglərin insanın psixologiyasına təsiri üzərində alimlərin apardıqları tədqiqatlar çox maraqlı elmi nəticələrin əldə olunmasına gətirib çıxarıb. Odur ki, **“rənglərin dili”**ni öyrənənlərin gəldiyi qənaət sözün əsl mənasında hər kəsi heyrətləndirir.

### Rənglərin psixologiyası

Rənglərin psixologiyası insan davranışları və hissiyatları üzərindəki təsirlərini öyrənən bir sahədir. Rənglərin seçimi, bəyənilməsi və onlara verilən reaksiyalar çox zaman şüuraltı səviyyədə baş verir və bizim haqqımızda çox şey deyə bilər.

### Qırmızı rəngin gücü

Qırmızı rəng enerji, həvəs və qüvvət simvoludur. Bu rəngi sevən insanlar adətən enerjik, həyat dolu və liderlik xüsusiyyətlərinə malik olurlar. Qırmızı rəngin seçimi həm də güclü emosional həyatın və tutqunun göstəricisi ola bilər.

### Mavi rəngin sakitliyi

Mavi rəng səbr, sülh və sakitliyi təmsil edir. Bu rəngi sevən şəxslər adətən sadiq, etibarlı və məntiqli olurlar. Mavi, həmçinin yaradıcılıq və mənəvi dərinliyi simvolizə edə bilər.

### Yaşıl rəngin təbiətlə əlaqəsi

Yaşıl təbiətlə uyğunluğu və balansı simvolizə edir. Bu rəngi sevən insanlar adətən mühitə qayğı göstərən, dəyişikliyə uyğunlaşa bilən və harmoniyaya önəm verən şəxslərdir. Yaşıl rəng, həmçinin inkişaf və tərəqqinin rəmzi olaraq qəbul edilir.

### Sarı rəngin optimizmi

Sarı rəng optimizm, enerji və yaradıcılığın rəngidir. Bu rəngi sevən insanlar adətən ünsiyyətcil, enerjik və zəka sahibi olurlar. Sarı, həmçinin yenilikçilik və macəra sevgisinin göstəricisi ola bilər.

### Bənövşəyi rəngin həssaslığı

Bənövşəyi rəng həssaslıq və lüksün simvolu kimi tanınır. Bu rəng dərin düşüncə və meditasiya ilə əlaqələndirilir, mənəvi inkişaf və özünüifadəni təşviq edən bir atmosfer yaradır. Bənövşəyi rəngi sevən insanlar əsasən yaradıcı, həssas və xeyirxah olurlar. Onlar həmçinin, öz daxili dünyalarına və lüks həyata dair məsələlərə dərin maraq göstərirlər.

### Çəhrayı rəngin qayğıkeşliyi

Çəhrayı sevgi və estetika rəngidir. Bu rəng şəfqət, qayğıkeşlik və mərhəmət hisslərini gücləndirir. Çəhrayı rəngi sevən insanlar ümumiyyətlə dostcanlı, qayğıkeş və romantik olurlar. Onlar insanlarla güclü əlaqələr qurmağa meyllidirlər və ətrafdakılara qarşı dərin anlayışa sahib olurlar.

### Narıncı rəngin fərqliliyi

Narıncı rəng enerji və həyəcanın simvoludur. Bu rəng optimizm, əyləncə və macəra hisslərini özündə birləşdirir. Narıncı rəngi sevən insanlar əsasən sosial, canlı və həvəsli olurlar. Onlar yenilikçi fikirlərə və təcrübələrə açıqdırlar və həyatı dolu-dolu yaşamaq istəyirlər. Narıncı rəng eyni zamanda yaradıcılığı və özünəinamı artırmaq qabiliyyətinə malikdir.



### Ağ rəngin sadəliyi

Ağ rəng saflıq və məsumluğun simvoludur. Bu rəng açıqlıq, səmimiyyət və sadəlik hisslərini özündə birləşdirir. Ağ rəngi sevən insanlar əsasən dürüst, optimist və mükəmməliyə meylli olurlar. Onlar həyatda sadəlik və harmoniyanı arzulayırlar və çətinliklərlə üzləşdikdə belə ümidlərini qoruyub saxlamağa çalışırlar.

### Qara rəngin zərifliyi

Qara rəng güc və səlahiyyətin rəmzidir. Bu rəng müstəqillik, qüvvət və ciddiyyəti ifadə edir. Qara rəngi sevən insanlar əsasən ciddi, özünəinamı yüksək və müstəqil olurlar. Onlar həmçinin, qərarlıdırlar və özlərini ifadə etmək üçün qətiyyətli yollar axtarırlar.

### Qəhvəyi rəngin rahatlığı

Qəhvəyi rəng stabillik və etibarlılığın simvoludur. Bu rəng təbiətlə əlaqə və rahatlıq hissi yaradır. Qəhvəyi rəngi sevən insanlar ümumiyyətlə praktik, etibarlı və sadiq olurlar. Onlar həyatın sadə zövqlərini qiymətləndirir və güvənli və sabit bir mühit yaratmağa çalışırlar.

### Boz rəngin stabilliyi

Boz rəng neytrallıq və balansın simvoludur. Bu rəng mülayimlik, səssizlik və sabitliyi ifadə edir. Boz rəngi sevən insanlar əsasən müvazinətli, peşəkar və ağıllı olurlar. Onlar qarışıq hisslərdən uzaq durmağı və obyektiv qalmağı üstün tuturlar. Boz rəng həm də müxtəlif rənglərlə asanlıqla birləşə bilər, bu da onu çoxyönlü və uyğunlaşan bir seçim halına gətirir.

### Rəng seçimləri və şəxsi inkişaf

Rəng seçimləri bizim şəxsi inkişafımızla da sıx əlaqədardır. Sevdiyimiz rənglər zamanla dəyişə bilər, bu da bizim iç dünyamızda baş verən dəyişiklikləri əks etdirə bilər. Məsələn, bir dövrdə qırmızı rəngə olan meyilimiz bizim daha aktiv və hədəflərimizə doğru irəliləmək istəyimizi göstərə bilər, halbuki digər bir dövrdə mavi rəngə olan meyilimiz sakitlik və daxili sülhə olan ehtiyacımızı əks etdirə bilər.

### Münasibətlərdə rəng üstünlükləri

Rəng üstünlükləri şəxsiyyətlərarası münasibətlərdə də önəmli rol oynaya bilər. İnsanlar arasında rənglərə olan meyil fərqlilikləri, müxtəlif xarakter və davranış xüsusiyyətlərinin uyğunlaşmasını və ya ziddiyyətlərini göstərə bilər. Bu kontekstdə rəng üstünlükləri şəxslərin bir-birləri ilə necə əlaqə qurduqlarını və bir-birlərinə necə reaksiya verdiklərini daha yaxşı başa düşməyə yardımçı ola bilər.

### Rənglərin iş və karyera seçimlərindəki rolu

Rənglər, həmçinin iş və karyera seçimlərimizdə də mühüm bir faktor ola bilər. Məsələn, yaradıcı sahələrdə işləyən insanlar sarı və ya qırmızı kimi daha canlı rənglərə meylli ola bilərlər, çünki bu rənglər yaradıcılıq və enerji ilə əlaqələndirilir. Digər tərəfdən, mavi və yaşıl kimi rənglərə meyil göstərən insanlar daha çox sakitlik və stabillik tələb edən peşələrdə uğur qazana bilərlər.

### Rənglər və sağlamlıq

Rənglərin sağlamlığımız üzərində də müsbət və ya mənfi təsirləri ola bilər. Mavi və yaşıl kimi rənglər stressi azaltmaq və sakitləşdirmək qabiliyyətinə malikdir, halbuki qırmızı və sarı kimi canlı rənglər enerji səviyyəsini və motivasiyanı artıra bilər. Bu səbəbdən rəngləri seçərkən onların psixoloji və fiziki sağlamlığımız üzərindəki potensial təsirlərini nəzərə almaq mühümdür.

*Aytən Tahirova*
*polis kapitanı*




# Azyaşlıların köməyinə polis çatıb

## Yolda nəzarətsiz qalmışdılar

Respublika əhəmiyyətli avtomobil yollarının keçidi yaşayış məntəqələrinin sakinləri ilə davamlı olaraq aparılan maarifləndirmə tədbirlərinə baxmayaraq hələ də yolu nəzərdə tutulmayan yerlərdən keçərək özlərini təhlükəyə atan piyadalara rast gəlinir.

Bir neçə gün öncə polis əməkdaşları baş verə biləcək daha bir faciənin qarşısını alıblar. Belə ki, Bakı-Quba avtomobil yolunun Yeni Yaşma qəsəbəsindən keçən hissəsində yolda nəzarətsiz qalan azyaşlıların köməyinə ərazidə xidmət aparan Yol Patrul Xidməti Alayının əməkdaşları çatıb. Polislər azyaşlıları yolun təhlükəsiz hissəsinə keçirərək onlara valideynlərinin icazəsi olmadan yaşadıqları yeri tərk etməməyi tövsiyə ediblər. Bu kimi valideyn məsuliyyətsizliyindən qaynaqlanan halların həmişə xoş sonluqla bitmədiyini xatırladan DİN Baş Dövlət Yol Polisi İdarəsi bir daha piyadalara müraciət edərək onları yol hərəkəti qaydalarını həyati vacib norma olaraq qəbul etməyə, hərəkət zamanı şəxsi məsuliyyət hissini unutmamağa çağırır.

*"Polis"*

# Tədbirlər davam etdirilir

## Sanitariya-gigiyena qaydaları izah olunur

İşğaldan azad olunan ərazilərdə yaşayan, işləyən



və buraya səfər edən şəxslərə təhlükəsizlik qaydaları ilə yanaşı sanitariya-gigiyena tələbləri izah edilir, maarifləndirici məlumatlar verilir. Xüsusən də tütün məmulatlarını, zibili, tullantıları urnalardan kənara atanların ictimai qınaq obyektinə çevrildiyi, onların bu əməllərinin qanunla qadağan olunduğu və bu kimi halların inzibati məsuliyyət yaratdığı diqqətə çatdırılır.

Qeyd edək ki, qaydalara əməl etməyən şəxslərlə bağlı polis tərəfindən inzibati tənbeh tədbirləri görülür.

# Müdriklərin söz xəzinəsi

## Müdrik insanın rəqibi özüdür

Səhər oyananda nə edəcəyin haqda düşün, axşam yatanda isə nə etdiyin haqda.

❖❖❖

Ağır iş vaxtında etmədiyiniz yüngül işlərin cəmidir.

❖❖❖

Alicənab insan özündən çox şey, başqalarından az şey gözləyər.

❖❖❖

Nəsihət eşidən dərdinə bir çarə tapar.

❖❖❖

Dahi insanların dili təbiətin özünün dili qədər sadədir.

❖❖❖

Çoxbilmişlik nadanlığın ən pis növüdür.

❖❖❖

Həmişə qəhrəman ola bilməzsən, amma həmişə insan olaraq qalmaq olar.

❖❖❖

Hər gün yeni bir inci tapmağın yolu öz içindəki hikmət xəzinəsinə baş vurmaqdır.

❖❖❖

Məşhur adam olmaq xoşbəxtlik, faydalı adam olmaq isə insanlıq borcudur.

❖❖❖

Sadəlik, yaxşılıq və düzlük olmayan yerdə böyüklük yoxdur.

❖❖❖

Ən nadir mərdlik fikir mərdliyidir.

❖❖❖

Qeyri-adi istedadın qeyri-adi zövqü olur. Bir müəllif digərini heç də həmişə paxıllıqdan kiçiltmir.

❖❖❖

Təbii istedad həmişə yaşıl qalar, əgər öz içində yetişən təkəbbür onu qurutmasa.

❖❖❖

Müdrikliyin həddi var, axmaqlıq isə hüdudsuzdur.

❖❖❖

İnsan haqqında onun istedadına görə yox, bu istedaddan necə faydalandığına görə mühakimə yürütmək olar.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik